## DƏMİR GƏDƏBƏYLİ

# ELLƏRİN ƏZİZ QIZI

(poema - elegiya - tarix)

"ASİYA" nəşriyyatı

Bakı - 2002

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

B-52
GN-2002

Redaktor prof. filologiya elmləri doktoru Cəlil Nağıyev

Korrektor Xələddin Rəhimli

Dəmir Gədəbəyli
B-52 "Ellərin əziz qızı". B.: "Asiya" nəşriyyatı, 128 səh. Bakı, 2002.

N $\frac{4700000000-15}{M-060-02}$ - 2002

"Asiya" nəşriyyatı, Bakı-2002



Əziz Əliyevin ailəsinin yaşadığı ev.

# AKADEMİK ZƏRİFƏ XANIM

Azərbaycan tarixində sərkərdə, şair, din başçısı, görkəmli dövlət xadimi kimi tanınan I Şah Ismayıl Səfəvi (Xətai) Sərləşkərlərindən (ordu başçısı) biri olan İrəvanqulu Xana "Göyçə gölünün qərbində", karvan yolu üzərindəki Çuxurda "qala yapmağı" əmr edir, İrəvanquluxan öz qoşunu və inşaatçılarla birgə çuxura gəlir və Osmanlı dövləti ilə "sınır sayılan" Çuxurda qalanı yapır.

Dünya xəritəsinə bir qala da əlavə olunur, İrəvanqulu xanın adını özündə saxlayan Irəvan qalası.

Qərbi Azərbaycanın bir sıra mahal və elatlarının mərkəzinə çevrilən İrəvan şəhəri XVI yüzillikdə Səfəvilər dövləti tərəfindən ucaldılmışdır. Özlərinə saxta tarix və mədəniyyət yaratmaqda mahir olan, əsrlər boyu Azərbaycan-türk torpaqlarına göz dikən ermənilər və erməni tarixçiləri bu faktı bilərək şəhərə Erbuni adı verib min illik yalan bir tarix uydurmuşlar.

Azərbaycan torpaqlarına daraşan ermənilərin "də-

nizdən dənizə dövlət yaratmaq" iştahası barədə ilk həyəcan təbilini çalan ellərimiz bir xalq nəğməsində oxuyur:

*İrəvanda xan qalmadı,*
*Gəncədə sultan qalmadı,*
*Daha məndə can qalmadı*
*Ay qız, o nə xaldı belə düzdürmüsən.*

Təəssüflər olsun ki, bu xalq mahnısını da ılk oxuyan müğənnilərimiz təhriflə oxumuşlar. Mahnıda "İrəvanda xal qalmadı" kimi məntiqsiz, məzmunu olmayan bir misra bu gün də dodaqlarda səslənməkdədir.

Görkəmli partiya və dövlət xadimi, Azərbaycan tibb elminin aparıcı alimlərindən biri olan Əziz Əliyev əslən, nəslən İrəvanlıdır.

Erməni millətcilərinin iyrənc genasid siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlı ailəsindən biri də Əliyevlər ailəsidir. Əziz Əliyev 1897-ci il yanvar ayının birində İrəvan səhərində anadan olmuş, Irəvan gimnaziyasını daha sonra S.Peterburq hərbi tibb akademiyasını bitirmişdir. Erməni millətçiləri ona doğma İrəvan şəhərində calışmağa imkan verməmislər. Ermənilərin Azərbaycan türklərinə qarşı yürütdükləri soyqırım siyasəti Əziz Əliyev ailəsini də Irəvan səhərindən köcməyə məcbur etmis, onlar Naxcıvanın Şahtaxtı kəndində məskunlasmışlar.

Mürəkkəb siyasi hadisələrin erməni hiyləgərlikləriylə qarısıq cərəyan etdiyi bir vaxtda bu ailə öz qüdrətini saxlamış, xalq arasında hörmət və məhəbbət qazanmışdır. Ailənin başçısı rektor, nazir, mərkəzi komitənin katibi, baş nazirin müavini olmuş, öz ağlı, kamalı, iş bacarığı ilə insanların ehtiram və sevgisinə sahib olmuşdur.



Görkəmli loğman Əziz Əliyev ailəsinin keçmiş olduğu çətin və şərəfli ömür yolu illərlə məni düşündürmüşdür. Ailənin hər bir üzvünün ömür yolu ülvidir, ucadır, şerə layiqdir.

Iyirmi nəğmədən ibarət olan bu poemada ailənin alim qızı Zərifə xanımın ömür yolunu tərənnüm etməyə çalışmışam. Alim ömrünün dəyəri və qiyməti onun xalqını ucaldan elmi kəşfləri, ixtiraları, insanlara gərəkli işləri, unudulmaz uca, ülvi xidmətləri ilə ölçülür. Alim deyəndə göz önündə Azərbaycan elminin nəhəng korifeyləri canlanır. Onların hər biri elm fədaisi olmaqla bərabər həm də xalqının adını, şərəfini ucaldan, bu yolda hər cür çətinliklərlə üzləşən və qalib çıxan qəhrəmanlardır.

Yenilməz iradəyə və elmi qabiliyyətə malik olan bu alimlərin sırasında Azərbaycan xalqının alim qızı Zərifə xanım Əziz qızı Əliyeva da vardır.

Zərifə xanım Əziz qızı şərəfli bir ömür yolu keçmişdir. O, 1950-ci ildə aspirantuya daxil olmuş, aspiranturanı bitirdikdən sonra respublika Oftalmologiya Elmi Tədqiqat İnstitutunda elmi işçi olmuşdur. Həmin illər Azərbaycanın ayrı-ayrı bölgələrində traxoma göz xəstəlıyi geniş yayılmışdı. Təkcə tibb alimləri deyil bütün dünya, Azərbaycan alimləri bu xəstəliyi aradan qaldırmağa səfərbər olmuşdu.

Zərifə xanım Əziz qızı ilk elmi işini bu xəstəliyin

müalicəsinə və aradan qaldırılmasına həsr etmiş, çox uğurlu və əhəmiyyətli elmi nəticələr qazanmışdır. Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işini başa çatdırdıqdan sonra Zərifə xanım daha bir göz xəstəliyi - qlaukoma xəstəliyinin müalicəsi və profilaktikası yolunda elmi işlər üzərində çalışmışdır. 1960-cı ildə o elmi tədqiqat işlərini başa vurub uğurla dissertasiya müdafiə edərək alimlik dərəcəsi almışdır.

Z. Əliyeva ömrünün böyük bir hissəsini Azərbaycanın kimya sənaye müəssisələrində çalışan fəhlələrin göz xəstəliklərinin müalicə yollarının axtarılmasına həsr etmişdir. 1977-ci ildə "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanın vəziyyəti" mövzusunda yazdığı dissertasiya işinə görə Z. Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Böyük xidmətlərinə, çox illik elmi tədqiqat işlərinə görə Z.Ə. Əliyeva 1983-cü ildə Azərbaycan Elmlər akademiyasının akademiki seçilmişdir.

*Amalı nur idi, eşqi nur idi,*
*Həyatı xalqına bir qürur idi,*
*Gözəllər icində inci, dürr idi,*
*Bir xanım var idi...*
*Zərifə xanım.*

*O, gözlərə işıq oldu, nur oldu,*
*El obaya məhəbbəti gur oldu,*
*Ürəklərdə sevgi oldu, pir oldu,*
*Bir xanım var idi...*
*Zərifə xanım.*

1985-ci ildə qələmə aldığım bu yazıya "Ellərin



Əziz qızı" adı verdim. Əziz adlı atanın əziz qızı olmaq təbiidir. Ellərin əziz qızı olmaq çətin və şərəflidir. Poemanın uğuru, müvəffəqiyyətli cəhətini hörmətli oxucularımın öhdəsinə buraxıram. Görkəmli loğman Zərifə xanımın gənclik illərini eləcə də atası Əziz Əliyevin həyatının ən dəhşətli, faciəvi anlarını canlandırmağa çalışmışam. Pafoslu, haylı-küylü şerdən fərqli həzin, lirik lövhələr tapmağa çalışmışam.

Poemada sadə, mehriban insanlara qarşı qəlbi sevgi ilə dolu bir həkim, bir ana, bir azərbaycanlı qadının sürətini canlandırmaq istəmisəm.

Mən Əziz Əliyevlərin, Heydər Hüseynovların yaşadığı qorxulu, qanlı-qadalı mühiti, bu mühitdə ağalıq edən emisarların vəzifə, karyera üçün hər cür alçaqlığa hazır olduqlarını təsvir etmişəm.

Əminəm ki, son illərdə qələmə aldığım "XX əsrin Nyutonu", "Xatirələrdə yaşayan illər", "Tuğ harayı" poemalarım kimi bu kitab da sizi sevindirəcəkdir.

*Sizə böyük məhəbbət və sevgilərlə:*
*Dəmir Gədəbəyli*

Commander of one of numerous armies of the great poet and founder of Sefevid dynasty Shakh Ismail 1 (Khatai), Irevangulu Khan following the highest decree has laid the basis of the fortress on the cross-road of two empires - Sefevid and Osman. It was beginning of Yerevan history. Armenians possessed by obsession about empire from sea up to sea, called their 80-years old capital as "Yerebuni", strewed it by ashes of antiquity and even dated "the historical event" by 6-8 century B.C.

People make history. It hasn't been any prominent Armenian figure that was born in Yerevan during the last 200 years. Even their own archives located in Matendaran and Uchmuatdzin, possess population lists with only Turkic surnames in. The family tree of outstanding statesman, Aziz Aliyev is rooted down to one of these names. He was born on Yanuary 1, 1897 in Yerevan. After graduating from local gymnasia he was admitted to the Medical Academy of Saint Petersburg.

At that time Tsar government made all the best to provide its Turkic population with intolerable living conditions on the new Armenian territories. The Aliyevs had to move to Shakhtaly village of Nakhchivan district. Many people are aware of the fact that Aziz bey had been an outstanding doctor, rector, minister, prime minister deputy, and ruler of Dagestan district. Everyone of his family deserved to be immortalized in songs.



Zərifə xanım Əliyeva ailəsi ilə. 1972-ci il.

This poem that devoted to his daughter, academician Zarifa khanum Aliyeva, consists of 20 songs. Being a prominent expert in ophthalmology she contributed a lot to developing of this field of medicine in Azerbaiyan and abroad. In 1960, after deep researching of such illnesses as glaucoma and trachoma she described her own discoveries and completed master's thesis on the subject. In 1977, her doctor's thesis was devoted to researching of eye illness of Azerbaiyan Chemical Industry employees. Her work and life were entirely devoted to hundred of thousands Azerbaiyani people. In 1983, because of her merits, she was elected as Academician of Medical Academy of Azerbaiyan Republic.

In 1985, I started to work on the first cycle of verses and published it. Readers have found it successful. And now I am making up my mind to present to readers the complete poem, where simplicity, breadth and depth oppress of soul exceeded even the most dark shades of 30-40 years, the epoch when the great men had to overcome great obstacles to preserve their grandeur.

*Damir Gyadabeyly*

Иревангулу хан, командующий одной из многочисленных армий основателя династии Сефевидов, великого поэта Шаха Исмаила I-го (Хатаи), согласно высочайшему и сиятельнейшему повелению заложил основание крепости на стыке двух империй - Сефевидской и Османской. Это и есть начало истории заселения города Ирeван. Армяне, одержимые "идеей-фикс" об империи от моря до моря, придумали своей 80-летней столице название "Эребуни", посыпали ее пеплом древности и даже датировали "историческую почву" VI - VIII веками до нашей эры.

История славна людьми. Ранее ближайших 200 лет нет ни одного видного армянского деятеля, родившегося в Иреване. Их же архивы, расположенные в Матенадаране и Учмуадзине, располагают многочисленными изначальными списками населения, где указаны исключительно тюркские фамилии. К одной из таких фамилий восходит родословная выдающегося государственного деятеля Азиза Алиева. Родился он 1 января 1897 года в Ереване, окончил там же гимназию, после чего поступил в Санкт-Петербургскую Академию медицины.

К тому времени царское правительство сделало все возможное, чтобы обеспечить тюркскому населению несносное существование на новоармянских землях. Семья Алиевых вынуждена была переехать в село Шахтахты Нахичеванского уезда. Многие из читателей знают, что Азиз муаллим



впоследствии стал замечательным врачом, ректором, министром, заместителем премьер-министра, руководителем Дагестанского края. Каждый из членов его семьи достоин увековечения в песнях.

Поэма, посвященная его дочери, академику Зарифе ханум Алиевой, состоит из 20 песен. Выдающийся офтальмолог, она сделала очень многое для развития этой отрасли здравоохранения в Азербайджане и далеко за его пределами. В 1960-м году она, описав собственные изыскания в избавлении людей от таких глазных болезней, как трахома и глаукома, защитила кандидатскую диссертацию. В 1977-м году ее докторская диссертация была посвящена органам зрения работников химической промышленности. За каждой ее работой стоят сотни тысяч людей, которым по крупицам посвящена ее жизнь. В 1983-м году за выдающиеся заслуги она избрана академиком Академии Наук Азербайджанской Республики.

В 1985-м году я приступил к первому циклу стихов и опубликовал его. Читатели сочли его удавшимся. И вот теперь только решился я представить на их суд всю поэму, где простота, широта, глубина Души превосходит даже самые темные тона страшных 30-40-х годов, - эпохи, когда великим людям приходилось через "не могу" демонстрировать свое величие.

***Дамир Кедабекли***

# DAHİYANƏ ÖMÜR

Dahi insanlar dahiyanə bir ömür, ecazkar bir tale yaşayırlar. Onlar həyatda olduqları zaman tanış-bilişlər, yaxınları tərəfindən o qədər də sezilmirlər. Çünki onlar özləri ilə bir sadəlik, təvazökarlıq, insanpərvərlik yaşadırlar. Böyüklə böyük, kiçiklə kiçik olurlar, hamı ilə dil tapır, hər kəslə öz dilində danışmağı bacarırlar. İnsanlar onları özlərinə yaxın, munis sayır, dərd-sərini, həyati qayğılarını, acı ağrılarını onlarla bölüşdürürlər.

Onların doğru qərarları, məsləhətləri insanlara həyat verir, itmiş ümidlərini, arzularını özlərinə qaytarır, həyat sevgisini coşdurur. Bizimlə bir dövrdə, bir vaxtda yaşayan o dahi insanların yoxluğunu ancaq onlar dünyasını dəyişdikdən sonra duyur, hiss edirik. Ömrümüzdə, günümüzdə yeri görünən, hər addımında məsləhətinə ehtiyac duyduğumuz o insanların yoxluğu bizi yandırıb yaxır.

Elə bil kainatdan bir planet, bir nəhəng ulduz uçub yox olur.

Azərbaycan səhiyyəsinin və bütünlükdə tibb elminin inkişafında unudulmaz xidmətləri olan böyük alim, istedadlı göz həkimi Zərifə Əziz qızı Əliyeva onu tanıyanların qəlbində dahi bir insan, kübar qadın, mehriban və qayğıkeş bir ana kimi əbədi yaşamaqdadır.



Zərifə xanım Əliyeva. 1951-ci il.

zərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

O, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb EA-nın mükafatı lauriatı, Sülhü Müdafiə Komitəsinin, "Bilik" cəmiyyətinin rəyasət heyətinin üzvü idi.

Zərifə xanım Əziz qızı hələ tələbəlik illərindən parlaq istedadını biruzə vermiş, yaşıdlarından öz bilik və bacarığı ilə seçilmişdir. Bu da səbəbsiz deyildir. Əvvəla Zərifə xanımın doğulduğu ailə həkimlər, ziyalılar ailəsi idi. Atası, bacı və qardaşları tibb elminin müxtəlif sahələri üzrə təhsil alıb ixtisaslaşmış, bacarıqlı və savadlı həkim kimi böyük xalq məhəbbəti qazanmışdılar.

Atası Əziz Məmmədkərim oğlu Əliyev Azərbaycan tibb elminin inkişafında özünəməxsus şərəfli yeri olan bir alim, respublika səhiyyəsinin istedadlı təşkilatçısı, görkəmli dövlət və ictimai xadim idi. Həkimlik sənətini Zərifə xanım böyük sevgi ilə seçmiş, bu sənətə bütün varlığı ilə bağlanmışdır. Azərbaycan Tibb institutunu uğurla başa vuran Zərifə xanım göz həkimi ixtisasını seçmişdir. Onu tanıyanlar, iş yoldaşları, görkəmli alimlər - hamı etiraf edir ki, çalışdığı illərdə Zərifə xanım Hippokrat andına sadiq qalmışdır. Xəstələrə həssas yanaşmış, onların müalicəsi üçün var qüvvəsni sərf etmişdir. Xəstələrlə həkim arasında qəribə bir bağlılıq, rəğbət dolu ünsiyyət telləri qurulmuşdu. Bir sözlə, o təkcə göz həkimi deyil, bir psixoloq

kimi xəstələrlə dil tapmağı bacarmışdı. Keçən əsrin əllinci illərində Azərbaycan oftalmoloqlarının qarşısında ciddi bir problem dururdu. Azərbaycanın şəhər və kəndlərində baş alıb gedən traxoma xəstəliyini aradan qaldırmaq, onun profilaktikasını və müalicəsini tapmağa, geniş yayılmış bu xəstəliyə tutulanlara yardım etmək məqsədilə respublikanın rayonlarına göndərilən göz həkimlərinin sırasında böyük loğman Zərifə xanım da var idi. O rayonlardakı çətin şəraitə baxmayaraq, xəstələri arayıb tapır, müayinə edir, ağır xəstələrin dispanserizasiyası üçün əlindən gələni əsirgəmirdi. Olduğu rayonlarda, əmək kollektivlərində, tibbi müəssisələrdə traxoma xəstəliyi haqqında mühazirələr oxuyur, onun müalicəsi üçün hansı profilaktik tədbirlərin görülməsini adamlara başa salırdı. Bir tədqiqatçı alim kimi onun Azərbaycanın dağətəyi və aran rayonlarında apardığı elmi işlər böyük nəticələr vermişdir. "Məktəblilər arasında traxomanın müalicəsi" adlı elmi tədqiqat işi kitabça kimi çap olunmuş, respublikanın əksər təhsil ocaqlarında şagird və müəllimlərin stolüstü kitabına çevrilmişdir. Azərbaycan səhiyyəsi tarixində traxoma xəstəliyinə qarşı ilk dəfə Zərifə xanım antibiotiklərdən - sintometsindən istifadə edərək müalicə aparmışdır. O bununla keçmiş müalicə üsullarının yanlışlığını isbat etməklə traxomanın aradan qaldırılmasına nail olmuşdur. O bir tədqiqatçı kimi köhnə dərman preparatlarından fərqli olaraq sentametsinin gözün selikli qişasında sorulmasının sürətləndirilməsinin kirpiklər arası yaraların tez bitişdirilməsini, gözün mikroflorasının təmizlənməsini və sair üstün



cəhətlərini sübuta yetirmişdir. Zərifə xanımın qlaukoma göz xəstəliyinin müalicəsinə həsr etdiyi elmi əsərləri də Azərbaycan səhiyyəsində böyük əhəmiyyət kəsb edir. Xüsusilə onun Əlibayramlı şəhərinin sənaye müəssisələrində, eləcə də maarif ocaqlarında apardığı müalicə və profilaktik tədbirlər heç vaxt unudulmayacaqdır. Adı çəkilən sənaye şəhərində Zərifə xanım neçə-neçə xəstənin gözünə nur, qəlbinə həyat eşqi bağışlayıb. Həmin insanlar böyük el loğmanını bu gün də minnətdarlıqla xatırlayırlar.

Keçən əsrin sonuna doğru Azərbaycan neft, neft kimyası sənayesi coşqun inkişaf yoluna qədəm qoydu. Sənayenin bu inkişafı özü ilə bərabər bir sıra xoşagəlməz problemlər də gətirdi. Ayrı-ayrı kimya zavodlarında peşə ilə bağlı göz xəstəlikləri yayılaraq geniş vüsət aldı. Zərifə xanım Azərbaycan kimya sənayesinin müxtəlif müəssisələrində profilaktik tədbirlərin keçirilməsində şəxsən iştirak etməklə Bakı Şin zavodunda, Mərkəzi Kondisionerlər zavodunda laboratoriyalar açıb, onlara rəhbərlik edir. Kimya sənayesində göz zədələnmələrinin öyrənilməsi və profilaktikasına dair bir sıra qiymətli elmi əsərlərini də həmin laboratoriyalardakı təcrübəsi əsasında yazmışdır. Bu silsilə tətqiqat elmi əsərlərinə görə Zərifə xanım M.I. Averbax adına mükafata layiq görülən ilk Azərbaycan alimidir. Onun elmi fəaliyyəti dünyanın ən böyük oftalmoloqları tərəfindən yüksək qiymətləndirilib. Akademik Zərifə Əliyeva dahi pedoqoq kimi uzun illər Azərbaycan həkimləri Təkmilləşdirmə institutunda dərs demişdir. Onun tələbələri bu gün də xalqımızın əziz

övladını məhəbbətlə, sevgiylə xatırlayırlar.

Şair Dəmir Gədəbəyli Zərifə xanımın həyat və fəaliyyətindən bəhs edən poemasına "Ellərin Əziz qızı" adını vermişdir. Bu ad heç də təsadüfi seçilməmişdir. Zərifə xanımı tanıyıb sevən, xatirəsini qəlbində əbədi yaşadan təkcə dost-tanış, qohum-əqraba, səhiyyə işçiləri, həkimlər deyil, həm də bütün Azərbaycan xalqıdır. Oxuculara təqdim olunan bu kitabda şəksiz ki, dahi bir insanın parlaq obrazı, kövrək xatirələri bir daha göz önündə canlanacaqdır.

*Rafiq Musa oğlu Məmmədhəsənov*
*Əməkdar elm xadimi, professor, ATU-nun elmi işlər üzrə prorektoru.*



Zərifə xanım Əliyeva. 1981-ci il.



Xanımlar xanımı, Zərifə
xanım,
Ey adi tərifə sığmayan
qadın.
Adınla fəxr edir Azərbaycanım,
Hamımız doğmanıq,
yoxdu bir yadın.
Müdrik bir alimsən, əziz
bir ana,
Gözlərə nur verdin sən
şəfqətinlə.
Sevgin dayaq oldu dahi insana,
Fəth etdin qəlbini
məhəbbətinlə!

## ALLAHIN ADI İLƏ

Allahım, ad yoxdu adından uca,
Mən sənə inandım ömrüm boyunca.
Adilsən üzünü döndərmə bizdən,
Damla ver mərhəmət adlı dənizdən.
Ulu tanrısısan türk ellərinin,
Adəmin, Həvvanın nəsillərinin.
İlk dəfə tanıyan türk olub səni,
Tanrı dağlarıdı türkün vətəni.
Qüvvət ver, söz açım əziz qızından,
Eşqi, məhəbbəti təmiz qızından.
Dönüb dəyişsə də hökmü dövranın,
Zərifə xanımın, böyük loğmanın
Heç vaxt yaxşılığın ellər unutmaz.
Allahım, yaxşılar az gəlir, çox az...
Müqəddəs türbəsi nur ilə dolsun,
Yeri cənnət olsun, ruhu şad olsun!



Zərifə xanım Əliyeva. Fotoportret. 1980-ci il.

## MƏHƏMMƏD PEYĞƏMBƏRİN ŞƏRƏFİNƏ

Dünyaya bir rahatlıq,
Min-bir sevinc gətirdi,
Cahan nura qovuşdu,
Qaranlığı itirdi.

Könüllərə məhəbbət,
Rahatlıq, səfa gəldi.
Min bir səfa içində
Eşq gəldi, vəfa gəldi.

İnsan oğlu əbədi,
Hürriyətə qovuşdu.
Vicdan səsi ucaldı,
Ədalətə qovuşdu.

Ürəklərə nur düşdü,
Varlığın üzü güldü.
Qan-qadalı dünyaya
Dinclik, rahatlıq gəldi.

İman nuru parladı,
Könüllər şəfa tapdı.
Məhəmmədi Mustafa
Uca bir qala yapdı.

Bir qala ki, qoynunda
Savaş olmaz, qan olmaz.
Dərdə, qəmə, qüssəyə
Yer olmaz, meydan olmaz.

Bir qala ki, heç kəsi,
Ayırmaz bir-birindən.
Quran möcüzə söylər
Yerin, göyün sirrindən.

Ona tapınan millət,
Yüksəldikcə yüksələr.
İmanından əl çəkməz
Min-bir sərvət töksələr.

O müqəddəs qalada
Təfriqələr yox oldu.
İbadətin feyzilə
İnsan qəbi yuxaldı.



Feyzinlə güldü dünya,
Ömür zindan olmadı.
Ürəklərə nur düşdü.
Bir yamanlıq qalmadı.

Canımız fəda olsun
Adına, can Məhəmməd!
İmansız bir dünyaya
Verdin iman, Məhəmməd.

Ey Xətamül-Ənbiya!
Neylərdi sənsiz dünya?
Ən ülvü bir duyğuya
Bizi çağıran Məhəmməd.

Allah seçən dahisən,
Sən şahların şahısan.
Möminlər pənahısan
Hər bir zaman, Məhəmməd.

Sənsiz olsa fələklər
Əsərdi sərt küləklər.
Gülməzdi heç mələklər,
Çərxi-dövran, Məhəmməd.

Gəldi neçə peyğəmbər,
Sənsən hamısına sərvər.
Şəriətindi rəhbər,
Deyir Quran, Məhəmməd.

Alidir gətdiyin din,
Nurun, iki aləmin,
Mələklərin, cinlərin
Ey sultanı, Məhəmməd.

Dəmir görüb min qəmi,
Hər dərdi hər sitəmi.
Ey dağılmış aləmi
Tezdən quran, Məhəmməd.



Zərifə xanım Əliyeva. Fotoportret. 1981-ci il.

## AMAN,
## PALIDIM, AMAN

Qara bir bulud axdı,
Başından şimşək çaxdı,
Aman palıdım səni
Yıxan nə yaman yıxdı.

Sinəndə qara tüstü,
Torpaq isti, sən isti.
Budaqların dünyadan
Yaman incidi, küsdü.

Alışsın qara bulud,
Kötüyündə var ümid!
Pöhrələyər bu bahar,
Unut, kədəri unut,
Palıd, qocaman palıd!

# HEYDƏR ƏLİRZA OĞLUNUN ŞƏRƏFİNƏ

Ey, adı adlardan uca dayanan,
Adıyla Vətəni nura boyanan!
Mən yaxşı seçirəm ağı qaradan,
Xəsislik etməyib səni yaradan.
Nə var sənə verib öz qüdrətilə,
Ağılı, kamalı, səxavətilə.
Analar ümidlə şam yandıranda,
Dünyaya göz açdın sən Naxçıvanda.
Türbələr səsləndi sən gələn zaman,
Şəfəqə qərq oldu qədim Naxçıvan.
Ruhu təzələndi Eldəgizlərin,
Toy-bayram gətirdi ayaq izlərin.
Sənə təlim verən müəllimlərin
Elmi, müdrikliyi göylərdən dərin.
Baxıb bir mənadan min məna seçdin,
Əqlinlə zirvədən zirvəyə keçdin.
Səninlə öyündü dərs verənlərin,
Oldun sevimlisi sən ərənlərin.
Elminlə düşmənin qəlbinə girdin,
Quş südü istədi, tapıb gətirdin.
Qorxusuz, ürküsüz gəzdin hər yanı,
İçindən dağıtdın azğın düşməni.
Aldın qisasını axan qanların,
Şeyx Şamillərin, Cavad xanların!
Vətəni satanda başsız başçılar,
Sən oldun yurduma yenə xilaskar.
O qədər ucasan, həm şərəflisən,
Sənin tərifinə söz tapmıram mən:
Tanrı sevimlisi, uzaqgörənsən,



Zərifə və Heydər Əliyevlər. 1968-ci il.



Zərifə xanım Əliyeva ailəsi ilə. 1968-ci il.

Yaxşıya, yamana qiymət verənsən,
Uşaqla uşaqsan, böyüklə böyük,
Biz sənin yanında zəif kölgəyik.
Sənsən ilhamları qanadlandıran,
Hər şair qəlbində çıraq yandıran,
Sənət üzüyünün yaqut qaşısan,
Saf-çürük eyləyən məhək daşısan.
Hər an qulaq asdın vicdan səsinə,
Cavidi yetirdin öz Məkkəsinə.
Binalar ucaltdın, saraylar saldın,
Ellərin gözündə artdın, ucaldın.
Dilində sülh sözü gəzdin dünyanı,
Bayraq tək daşıdın Azərbaycanı.
Ey haqqın yolunda dinclik bilməyən,
Vətənsiz, millətsiz deyib-gülməyən.
Düşündün, daşındın, hey gecə-gündüz,
Düşmən təslim oldu topsuz-tüfəngsiz.
Sənin bu qüdrətin daim var olsun!
Sənə erməni də minnətdar olsun...
Sən aldın qarşısın fitnənin, şərin,
Xilaskar oğlusan bütün bəşərin.
Ey ulu Qafqazın El ağsaqqalı,
Vaxtında durdurdun neçə çaqqalı.
Dinləyib sözünü diplomatların,
Çaşdırdın özünü diplomatların,
Oxusun sözümü gələn nəsillər,
Dəyişsə eralar, illər, fəsillər,
Dəyişməz məsləkin, amalın sənin.
Canlanar gözlərdə xəyalın sənin,
Gəl şair Dəmirin eşit dilindən,
Vətəni sən aldın üç div əlindən!
Ellərin qəlbində adındı əzbər,
Ey Əli soyunu ucaldan Heydər!

## İLHAM HEYDƏROĞLUNA

Ey dahi insanın ömür işığı,
Qürurda, təmkində el yaraşığı.
Halal süd əmmisən, məğrur anadan,
Vətənin oğlusan, başdan, binadan.
O qədər dərin ki, ağlın, kamalın,
Düşməni lal etdi hər bir sualın.
Səndəki coşqunluq, səndəki hünər,
Üç divin başını bir anda üzər.
Enmə gəl, heç zaman ucalığından,
Utansın arxanca şayələr yayan..!
Amalın qüvvətdir, mərd könüllərə
Ulu Qarabağı qaytar ellərə!
Hünərin mil salsın xain gözlərə,
Ellər aldanmasın cəfəng sözlərə!
Xalqın ümidisən, el pənahısan,
Vətənin nur dolu bir sabahısan.
Yurdundan dağılsın hər zülmət axşam,
Sən ey türk elinin ilhamı İlham!



## YAZ, YARAT...

*Dostum Tamerlan*
*Əziz oğlunun xatirəsinə.*

- "Şair xalq!" - söyləyir yetən xalqıma,
Amma şair azdı. Yaz, yarat, şair!
Çoxu bu torpaqda, məni qınama,
Atıb iş-gücünü qafiyə sayır...

Şairlik ilahi vergidir, qardaş!
Bu eşqi söz üstə yananlar bilər,
Şairlik məhəbbət, sevgidir qardaş,
Yaz, yarat! qədrini qananlar bilər...

Yaz, yarat! - deyirdin məni görəndə,
Xəstəni şeirlə sağaldan Loğman.
Daha yaz deyənim yoxdu neyniyim,
Yoxluğun qəlbimi üzür, Tamerlan.

*1999, Bakı*

## DÜNYA

Torpaqdan ucalanlar
torpağa enməlidir,
Torpaqdan yarananlar
torpağa dönməlidir.
Əbədiyyət deyilən, yalan,
ağappaq yalan,
Bu gün yanan ulduzlar
bir sabah sönməlidir.
Varlıq adlanan yalan ötən
bir həvəs imiş,
Həyat əzab, əziyyət,
ömür bəhsə-bəhs imiş.
Güllü-çiçəkli dünya, min bir
kələkli dünya,
Gəlib gedən insana
bir quru qəfəs imiş.
Gedən sənsən, gələn mən,
bax, belədir yaranış.



Əziz Əliyevin ailəsi (ikinci sırada ortada Zərifə xanım). 1932-ci il.



Zərifə xanım Əliyeva (ikinci sırada sağda) ailədə. 1947-ci il.

Hər gəlişdə bir sevinc,
hər sevincdə aldanış.
Dünya cəmi dörd fəsil,
hər fəsildə bir nəsil.
Yaylı, payızlı ömrün bir üzü yaz,
biri qış.
Gündüz əbədi deyil, gecəsi var dalınca,
Hey vuruşur xeyir-şər
biri qalib olunca.
Zorluların zoru var,
gücsüzlərin goru var,
Biri əli qılınclı,
biri əli yalınca.
Yaşam özü siyasət,
siyasətdə fəlakət,
Bu oyunda kim uda, kim uduza
ya qismət.
Aldadan üzlər gülər,
qisası hünər bilər.
İstər uçsun, dağılsın
yüz ölkə, yüz məmləkət,
Bax, beləcə fırlanır bu müdrik
qoca dünya,
Fırlanır, hey almadan kimsəni vecə dünya,
Yaxşıya rəhmət deyər,
yamana lənət deyər,
Bir üzü al günəşli,
bir üzü gecə dünya.

# ELLƏRİN ƏZİZ QIZI
(poema - elegiya -tarix)

## ÖNLÜK

I

Çalışdım, çarpışdım haqqın yolunda,
Düşmən sürüləri sağı solumda,
Doğruluq ömrümə vursa da yara,
Ağa ağ söylədim, qaraya qara.
Sınsa da ürəyim bir şüşə kimi,
Əymərəm boynumu bənövşə kimi.
Mənim türk millətim, mənim türk soyum,
Səninlə bağlıdı sevincim, toyum.
Məndən incimәsin özgə soylular,
Kökün sevməyənin gözü oyular.
Oğuz boyundanam, türk oğlu türkəm,
Dəmirəm, möhkəməm, qayadan bərkəm.



II

Ənəlhəqqəm, Nəsimidən betərəm,
Kəsilsəm də mən yenidən bitərəm.
Alışıb yanmışam hər sözün üstə,
Mənimdi yazdığım yaxşı da, pis də.
Dönük olmamışam içdiyim anda,
Gözüm olmayıbdı şöhrətdə, şanda.
Külək tək yüz səmtə əsməmişəm mən,
Öz alın yazımdan küsməmişəm mən.
Təhqirə, aclığa çox dözmüşəm mən,
Uca rütbələrdən əl üzmüşəm mən.
Əl öpüb olmadım saray şairi!
Gurultu şairi, haray şairi!

III

Aqillərin günahına yanmışam,
Azmanların alovunda donmuşam.
Mənim haqq deyilən bir Allahım var,
Nə büt axtarmışam, nə büt yonmuşam.

Mənim ömrüm çiyinlərə yük deyil,
İmanım var, sözüm haqqa şək deyil.
Başım üstə Demoklisin qılıncı,
Nəsimilər, füzulilər tək deyil.

IV

Mən ömrümdə çox imtahan görmüşəm,
Bir cahanda min bir cahan görmüşəm.
Alim gördüm adamlıqdan uzaqdı,
Mərifət alimi çoban görmüşəm.

Alim olar, adam olmaz hər yetən,
İncimasin alimlərin, ey Vətən!
Qara yellər qara xəbər gətirdi
Zərifə xanımdan, yandım ürəkdən...

V

Amalı nur idi, eşqi nur idi,
Həyatı xalqına bir qürur idi,
Gözəllər içində inci, dürr idi,
Bir xanım var idi... Zərifə xanım.

O, gözlərə işıq oldu, nur oldu,
El-obaya məhəbbəti gur oldu.
Ürəklərdə sevgi oldu, pir oldu,
Bir xanım var idi... Zərifə xanım.

VI

Bir ömür yaşadı, sadə yaşadı,
Elmi heyran etdi dostu, yaşıdı.
Ömür karvanını çəkib gedəndə
Düşmənin də gözündəki yaş idi.

Haqq nurundan yaranmışdı deyirlər,
Bir saraydı qəfil uçdu deyirlər.
Onsuz bir dahinin qocaman ömrü,
Yarı payız, yarı qışdı deyirlər.



Zərifə xanım atası Əziz Əliyev ilə. 1948-ci il.

## BİRİNCİ NƏĞMƏ

Uçur fikirlərim keçmişə sarı,
Ey yaxın tarixin sərt qapıları,
Açılın, mən sizdən keçmək istərəm!
O qorxunc günləri bal şərbət kimi,
İtmiş arzu kimi, səadət kimi,
Çəkərək başıma içmək istərəm.
Nə qədər çətindi tarixə yollar,
Ah, nə mehribandı uzanan qollar.
Dolansın boynuma isti biləklər,
Oğul qucaqlayan bir ana kimi,
Mən onu hiss edib duyana kimi,
Dikilsin gözümə solğun bəbəklər.

Ey saralmış tarix, həyat var səndə,
Nə qədər sirr yatır sənin sinəndə.
Gərək sirdaş olam açam sirrini,
Od alov içində igid ər kimi,
Saç-saqqal ağartmış bir zərgər kimi.
Seçəm gövhərini, seçəm dürrünü.

Zamanı saxlamaq Allah işidi,
Belə bir möcüzə ağlı üşüdür.
Ey tarix, gəlirəm aç qapıları,
Zərifə adlanan zərif mələkdən,
O nurdan yaranmış zərif çiçəkdən
Doyunca ellərə söz açım barı.
O el loğmanıydı, el anasıydı,
Qəlbi mərhəmətin saf aynasıydı.
Heyf yaxşıların ömrü az olur,
Ulduz tək parlayıb axıb gedirlər,
Vurğun könülləri yıxıb gedirlər,
Belə gəlib gedən ancaq yaz olur.



## İKİNCİ NƏĞMƏ

Gözün aydın, ay ana,
Gözün aydın, ay ata,
Haqq nurundan yaranmış,
Bir qız gəldi həyata.

Üzündəki təbəssüm,
Ağ zanbağı andırdı.
Görənlərin qəlbində,
Ümid nuru yandırdı.

Qızılgül tək ətirli,
Zərif bir çiçəkdi bu,
Mələklər olmasaydı,
Deyərdik mələkdi bu.

Zərifə adı qoydu,
Ata zərif qızına.
Şəfəqlərdən doğulmuş,
Parlaq dan ulduzuna.

İllər, qanadlı illər,
İllər, ağ atlı illər,
Nə tez gəlib ötüşdü,
O böyüdü, boy atdı,
Arzuları oyatdı.
Məktəb vaxtı yetişdi.

Birinciyə gedən il,
Uğur gəldi elə bil,
Gözəl bir xəbər oldu.
Bir təhsil ocağına,
Atası rəhbər oldu.

## ÜÇÜNCÜ NƏĞMƏ

Qıtlıq illəriydi, qıtlıq illəri,
Ümid tonla idi, çörək qramla.
Genosid olurdu türk nəsilləri,
Qara maşınlarla, zülmət axşamla...

Cavidlər, cavadlar xalq düşməniydi,
Markaryan millətin qanın içirdi.
Rəhbər inandığı tək ermənydi,
Satqınlar, yaltaqlar başa keçirdi.

"Bakının sayrışan ulduzlarından",
Salam deyilirdi ulu rəhbərə.
"Çadrasız, boyasız türk qızlarından",
Deputat seçirdi neçə heyvərə.



Dost-dostu satırdı, qardaş-qardaşı,
Oğul atasıyla üzə dururdu.
"Dönməz bolşeviklər" dünyaya qarşı,
Kommunizm deyilən dünya qururdu.

Bir qorxu gəzirdi, ölüm qorxusu,
Stalin deyəndə əl çalırdılar.
Mömün bəndələrin yoxdu yuxusu,
Dönüb Allahından alçalırdılar.

Cövlan eyləyirdi qara maşınlar,
Gündə bir ocağa şivən salırdı.
Millət sevənlərin yeriydi zindan,
Daşnaklar türklərdən qisas alırdı.

İş-gücü çox idi Əziz həkimin,
Gecə də, gündüz də oyaq qalırdı.
Bir yandan tuthatut, bir yandan azar,
Zavallı milləti haldan salırdı.

Qaraqızdırmadan ölənlər saysız,
Qorxudan ölənlər onlardan da çox.
Bizim qaragünlü "Odlar yurdunda",
Şəhərdə tutar yox, kənddə tutar yox.

Türkü sata-sata ulu rəhbərə,
Mikoyan Rusiyada meydan sulayır.
Bakıda Markaryan nazirə dönüb,
"Kişinin" önündə quyruq bulayır.

Erməni əlində oyuncaq "kişi",
Şöhrətdən məst olub, dönüb cəllada.
Ulu rəhbərindən təşəkkür alır,
Alimi, şairi verdikcə bada.

Gündə bir təxribat, gündə bir yalan,
Oyun oynayırdı daşnak sürüsü.
Fitnə-fəsad ilə soydurulurdu,
Böyük bir millətin gönü, dərisi.

"İrəvanda xan qalmadı! "
Bu bir qədim türk nəğməsi.
Düşmən fikrin qanan xalqın,
İxtirası, möcüzəsi.

Xalq elini-obasını,
Nəğmələrlə oyadıbdı.
Qaçqınlığın ilk acısın,
İrəvanda o dadıbdı.

Şahtaxtıya köçüb gəlib,
Öz yurdundan həkim Əziz.
Ürəyində daşnaklara,
Kini sonsuz... kini dəniz...

İllər ötüb qan-qadalı,
Nəsli pərən-pərən olub.
Belə zülmü nə tarixdə,
Nə dünyada görən olub.



O, aldanmış bir fanatik,
Bolşeviklər sırasında.
Çox ağırdı qanan olmaq,
Nadanların arasında.

O, Leninə, Nərimana
İnanırdı imam kimi.
İnanaraq aldanırdı,
Əriyirdi bir şam kimi.

Necə billur, necə safdı,
Kommunist tək Əziz həkim.
İzlənirdi addım-addım
O saf ürək, təmiz həkim.

## DORDUNCÜ NƏĞMƏ

Mir Cəfərdən can qurtarmaq,
Çox zor işdi Əziz Həkim.
Dağıstana gedər oldun,
Yüksəlişdi, Əziz Həkim!
Çatmayacaq sənə əli,
Get, köməyin olsun Əli!
Qürbət eldə ad çıxarmaq
Asan deyil, Əziz həkim.
Bu rüşvətlə qazanılan
Ad-san deyil, Əziz həkim.
Dağlı çətin deyər: Bəli!
Get, köməyin olsun Əli.

Dağıstanda min bir millət,
Hər kəndinin öz dili var.
Çətin işə göndərildin,
Ya rəhbərin bir feli var?!
Bəlli deyil fitnə, feli?!
Get, köməyin olsun Əli!

Tanrı özü qoruyanı,
Bəndə yıxa bilməz inan.
Yaxşılara tor quranın,
Heç vaxt üzü gülməz inan.
Qarğa sevərmi bülbülü?!
Get, köməyin olsun Əli!

Bərəkətli olur, həkim,
Halal ad-san, halal çörək.
El qədrini bilən insan,
Tarix boyu elə gərək.
Murdar qanı içər zəli,
Get, köməyin olsun Əli!



Əziz Əliyevin ailəsi (soldan sağa: Gülarə xanım, Leyla xanım, Zərifə xanım, Əziz Əliyev). 1948-ci il.



Əziz Əliyevin ailəsi. 1947-ci il.

## BEŞİNCİ NƏĞMƏ

Dağlı qızlarının arasında tək,
Bir qoşa hörüklü mələk var, mələk.
Çox sadə, mehriban, yerişi ağır,
Üzündən, gözündən haqq nuru yağır.
O tibb institutu tələbəsidir,
Sanki yanaqları dağ laləsidir.
Görənin ağlını alır başından.
Qədim Mahaçqala yaranışından,
Köksündə görməyib belə gözəli,
Nəğmələr söyləyir dadlı, məzəli.

Qızlarla dolaşır bağçanı-bağı,
Gah da mavi Xəzər anasayağı,
Çimən gözəlləri öpüb, oxşayır,
Onun yay tətili belə başlayır.
Obkom katibinin qızıdır, o qız,
Onun sadəliyi çaşdırır yalnız,
Baxan insanları, dost-tanışları.
Görənə od vurur lal baxışları.

## ALTINCI NƏĞMƏ

İçəri şəhərin küçələri dar,
İçəri şəhərdə qədimlik yaşar.
Çadralı bir qadın dayanıb səssiz,
Özü də həm kordu, həm də kimsəsiz.
Kiminsə gözləyir yazıq yolunu,
Ona yardım etsin tutsun qolunu.
Bu zaman qarşıdan iki qız gəlir,
Qadının fərəhdən səsi yüksəlir:
- Nə yaman gecikdin, hardaydın, qızım?
A mənim ümidim, tale ulduzum.
Güc-bəla gəlmişəm bu yerə qədər,
Hədər yaşayıram, dünyada hədər,
Əcəl də gəlmir ki, ala canımı.
- Xala, gözləyirdim Püstəxanımı.
O bir az naznazdı, ağır ayaqdı,
Tez gəlsə gecikmək olmayacaqdı.
- Nə deyim, bala,
Kor olmaq insana bəladır, bəla.
Görsəydim bircə gün, dərdim olmazdı.
- Dərdini desənə, loğmanmı azdı?!
Bir çarə olardı yəqin gözünə.



- Qızım, çoxlarının düşdüm izinə,
Yıxdı, məni yıxdı türkəçarələr,
Danışsam qəlbini əzər, paralar.
Gəncliyim də getdi, pulum da getdi,
Qara gözlərimdə bu ağlar bitdi.
- İnşallah Zərifə bir əlac tapar,
Onun ipəkdən də incə qəlbi var.
Bu il göz həkimi olacaq inan.
- Qızım, inam ilə yaşayır insan.
Təki tez yetişsin arzu murada,
Haqq dadına çatsın, çatarsa dada.
- Xala, Püstəxanım şişirdir bir az,
Elmsiz bir dərdə əlac tapılmaz.
Hələ çox oxuyub öyrənməliyəm,
Elmsiz özümü öyməməliyəm.

Nə zamandır üzü gulmür,
Gecə bilmir, gündüz bilmir,
Gözlərinə yuxu gəlmir,
O gözlərə nur axtarır.

Yadından çıxmayır bir an,
Dərdli qadın, yazıq insan,
Keçib neçə imtahandan,
O gözlərə nur axtarır.

Loğman varmı, varsa hanı?
Dayandırmır aramanı,
Azərbaycan, onu tanı,
O, gözlərə nur axtarır.

## YEDDİNCİ NƏĞMƏ

De, aymı gətirdi, ilmi gətirdi,
Hardan gəlib çıxdı ədalı oğlan.
İllərdi qəlbində sirr kimi qalan,
Utancaq, təmkinli, xəyali oğlan.

Baxışında bir əfsun var elə bil,
Dil söz tutmur cavab versin sözünə.
Silkələnir uca dağlar elə bil,
Görüşəndə baxa bilmir gözünə.

O gələndə ürək quş tək çırpınır,
Dünya, aləm çiçək olur, gül olur.
Axı qızda çoxlarının gözü var,
O gəldimi, hamı yanıb kül olur.

Uca nə var sevilməkdən, sevgidən,
Sevən kəslər nə xoşbəxtmiş, İlahi.
Demə məni yarpaq kimi titrədən,
Məhəbbətmiş, Məhəbbətmiş, İlahi!

Nə söyləsin, söz dodaqda qırılır,
Od tutur ürəyi alışıb yanır.
Qara qaşlar bir yay kimi gərilir,
Gözündə Şeyx Sənan, Xumar canlanır.



Zərifə xanım Əliyeva. Fotoportret. 1946-cı il

- Bəlkə də bir kəlmə ciddi sözümlə,
Narahat edirəm, gözəl qız, səni.
Taqsırım var isə keç günahımdan,
Bağışla, ey pəri, bağışla məni.

Ürəyin hökmüdür, güman edirəm,
Sənin ürəyini bilməliyəm mən.
Tapşırıq almışam, sabah gedirəm,
Gülürsən, o qədər gülməliyəm mən?!

- Yox, sənə gülmürəm sözün doğrusu,
Tezcə qərar vermək... çətin işdi bu!
Atam var, anam var, böyüklərim var...
- Olsunlar... Bu işdə sənindi qərar.

Ömür-gün sevdası
zarafat deyil!
- Göndər elçiləri,
demirəm əyil,
Sən məni atamdan, anamdan
istə!
- O da baş üstə!
Atan qəzəblidi, belə deyirlər...
Qorxuram verməyə, verməsə əgər...
Qoşulub qaçarıq, uzaq ellərə,
Eşqimiz, andımız düşər dillərə.
Leyli Məcnun kimi, Əsli
Kərəm tək!
- Qoşulub qaçmaram,

xəyaldan əl çək!
Atamın hörməti, adı, sanı var,
Ona tənə vurar eldə nadanlar.
Məhəbbət azaddır, vaxt o
vaxt deyil,
İndi sevən kəslər qara baxt
deyil.
- Olsun, nə deyirəm,
sən deyən olsun,
Görüş elçilərim gələnə qalsın.

O gündən həftələr, aylar dolandı,
Dövran çaylar kimi daşdı, bulandı.
Qeyb oldu harasa utancaq oğlan,
Bir gözəl yoluna göz dikdi hər an.



## SƏKKİZİNCİ NƏĞMƏ

Nə vaxtdır yoluna göz dikmişəm mən,
Bir dəli həsrətdən bezikmişəm mən.
Gecikdi elçilər, nə gəlməz oldu,
Arzum xəyal kimi görünməz oldu.
Sən getdin, dincliyim getdi səninlə,
Sevdalı gəncliyim getdi səninlə.
Hardasan, and içib, söz verən oğlan,
Atama elçilər göndərən oğlan!
Telefon zəng çalır otaqda birdən,
Zərifə ayrılır düşüncələrdən.
- Sənsənmi?
- Mənəm.
- Uzaq bir səfərdən bu gün gəlmişəm.
Axşam görüşürlər Sabir bağında.
Alışır oğlanın söz dodağında:
- Ay qaragöz yarım, qoşa hörüklüm,
Sevgimiz çiçəkli yaza bənzəyir.
Gedirəm qürbətə ürəyimdə sən,
Ürək dil-dil ötən saza bənzəyir.

Hayana aparır bu yollar məni,
Sirr elə sirdir ki, deyə bilmərəm.
Sən mənim ümidim, sən mənim eşqim,
Sənsiz sevinmərəm, sənsiz gülmərəm.
İlk dəfə qəlbini açır o mələk,
Köksündə quş kimi çırpınır ürək.

- Sənin ayrılığın üzəcək məni,
Həsrət əzim-əzim əzəcək məni.
Yoxluğun qəlbimi çəksə də dara,
Mən hara, de, səni unutmaq hara?
Gecə yuxumdasan, gündüz gözümdə,
Üzünü görsəm də, görməsəm də mən,
İnan ki, eşqimdə dönük olmaram,
Andını, əhdini unutmasan sən.
Içəri şəhərin küçələri dar,
İki bəxtəvər var, gedir qol-qola.
Onların dalınca həsədlə baxır,
Qala, qədim qala, qala, "Qız qala"!

İlahi, nə xoşbəxt, nə xoşbəxtdilər,
İki qəlb bir dünya inam daşıyır.
Hərdən bir-birinə baxan gözlərdə,
Bir ümid yaşayır, sevgi yaşayır.

Ay da buludlardan baxır Bakıya,
Əbədi sevgiyə çıraq yandırır.
- Mən dönük olmaram!
Bu söz oğlanı,
Üfüqdən-üfüqə qanadlandırır.



## DOQQUZUNCU NƏĞMƏ

Bu necə görüşdü, görüşdü tanrı,
Qəlbimə əbədi od düşdü tanrı.
Bilmirdim eşq nədi, məhəbbət nədi,
Deyirdim nə varsa bir əfsanədi.
Gülürdüm qızların baxıb halına,
Sevilmək gəlmirdi heç xəyalıma.
Nə oldu, bilmədim, mənə nə oldu?
Qəlbimə sevdanın alovu doldu.
O getdi, könlümü apardı getdi,
Dünyamı özüylə qopardı getdi.
Mənə bəlli deyil getdiyi ölkə,
Ömrünün hər anı bir risk, təhlükə.
Atamdan, anamdan icazəsiz mən,
Ona könül verdim, söz verdim nədən?!
Nə vaxtdır gedibdi, yoxdu səs-soraq,
Baxıram yollara divanə sayaq.
Yollara göz dikim nə vaxta qədər,
Sevgidən qismətim bir dünya kədər.
O qəmi, kədəri unutsun deyə,
Alışan qəlbini uyutsun deyə,
Gecə də gündüz də yuxusuz qalır,
Xəlvətə düşəndə piano çalır.
Oxuyur, səsində gizli bir həsrət,
Oynadır qəlbini ülvi məhəbbət:
"Üzüyümün qaşı firuzədəndi,
Könlüm açılmayır, bilməm nədəndi?"

- Anan səsinə qurban,
Niyə belə qəmlisən?!
Səsinin odu ilə,
Yandırdın qəmləri sən.

Ürəyində nə varsa,
Mənlə bölərdin, qızım.
Sənki belə deyildin,
Deyib gülərdin, qızım.

Yoxsa məndən kəsmisən
Övlad məhəbbətini.
Qız gizlərmi anadan,
Sözünü, söhbətini.

Gülüm, çiçəyim mənim,
Gözəl, göyçəyim mənim.
Bir tanrının verdiyi
Zərif mələyim mənim!

Nə desin anaya, ana haqlıdı,
Gərək söyləyəydi... yer qulaqlıdı.
Gec-tez Leyla xanım dərdin biləcək,
Bir də ondan özgə kimlə böləcək,
Bu gizli dərdini, gizli qəmini.
Desə bəlkə tapdı işin çəmini.
Anam düz söyləyir, axı mən nədən,
Onunla üz-üzə gəldiyim gündən,
Anamı xəbərdar etməli idim,
Sonra görüşünə getməli idim.



Neylərəm atama çatsa bu xəbər,
Atam elçilərə yox desə əgər...
Yox, yox, mənim atam ucadır, uca,
Yaxşı kişi olub ömrü boyunca.
Özü alqışlayıb saf məhəbbəti,
Onun məğrurluğu, böyük təbiəti,
Yol verməz heç zaman bir yamanlığa,
Yaddır cəhalətə, həm qaranlığa.
- Ana, bir söz deyim qınama məni,
Utandım, xəbərdar etmədim səni.
Məni istəyən var, məni sevən var,
Hərdən görüşürük... iki ay olar...
Ana həsrət ilə süzür qızını,
Həyadan qızarmış dan ulduzunu.

## ONUNCU NƏĞMƏ

Onun sevgisi ülvi, onun sevgisi uca,
Onun eşqi bir aləm, məhəbbəti dünyaca.
Kimsə bilmir bu eşqi Leyla xanımdan özgə,
And içib gedən oğlan, əhdə düşürmə kölgə.
Yoluna göz dikən var, üzür onu həsrətin,
Yaşar onun qəlbində bir dünya məhəbbətin.
Getdiyin bir il olar, səndən yoxdu səs-soraq,
İntizarda qalandan kim əhval soruşacaq?
Qıza gələn elçilər, gəlir, peşiman gedir,
Harda qaldın, ay oğlan, bir qız pərişan gedir.

Ay gözümün nuru, ay ömrüm-günüm,
Ay qəlbimin ümid dağı, hardasan?!
Gecə yuxum yoxdu, gündüz qərarım,
Könlüm olub qəm oylağı, hardasan?!

Bilirsən həsrətə daha tabım yox,
Mən səni sevirəm canımdan da çox.
Sənsiz dost-tanışın hər sözü bir ox!
Niyə yoxdu səs-sorağın, hardasan?



Zərifə xanım Əliyeva Yaltada istirahətdə. 16 oktyabr 1938-ci il.



Zərifə Əliyeva (sağda ikinci) sinif yoldaşları ilə. 6 yanvar 1937-ci il.

Yol boyu ayrılmır düşüncələrdən,
Ataya, anaya nə söyləsin, nə?!
Son söhbət yadına düşəndə hərdən,
Sözlər xəncər kimi batır qəlbinə.

Tutulub ananın qaşı-qabağı,
İlk dəfə qızıyla acı danışır.
İttiham eyləyir hakim sayağı,
Dediyi hər sözdən yanır, alışır!

- Gözün yoldadır, ay qızım,
Gözlə, buna yoxdu sözüm,
Hanı məndə dəmir dözüm,
Gedən nədən gəlməz oldu?!

Gələn deyil, olma uşaq,
Unut onu, Allaha bax.
Rəngi-ruhun sarı yarpaq,
Gülər üzün gülməz oldu.

Mən bu sirri çox gizlədim,
Daha bəsdi sən gözlədin.
Yetər onu əzizlədin,
Qədrini bilməz oldu.

Nə danışsın, nə söyləsin,
O haqsızdı, ana haqlı.
O susmasın, de neyləsin,
Haqq önündə dili bağlı.

Bir ildir ki, gözü yolda,
Nə xəbər var, nə bir kağız.
Elçilərin sayı yoxdu,
Adı gəzir ağız-ağız.

Elçilərə yox deməkdən,
Ata bezib, ana bezib.
Qızılvəngli Həcər kimi,
Onun adı dildə gəzib.

Hərə bir cür söz uydurur,
Kim bağlayar el ağzını,
"Əziz həkim varlı gəzir,
Versin bu göyçək qızını!".

Kimi deyir: - acı dildir,
Qovur gələn elçiləri.
Danışmağın xatirinə,
Söz uydurur neçələri.

"Qız ağacı, qoz ağacı" ,
Hərə bir daş atıb gedir.
Söz gəzdirən heç bilirmi,
Min günaha batıb gedir.

- Leyla xanım, Leyla xanım!
Ucalar, ayağa enməz.
Öz eşqindən, öz andından
Dünya dönsə, qızın dönməz.



## ON BİRİNCİ NƏĞMƏ

Aldığı xəbərdən sarsılıb Seyid,
Sanki oda düşüb, qarsılıb Seyid.
Eşitdiyi andan yuxusu qaçıb,
Dostu Laverenti məxfi sirr açıb:

- Ayıq ol, Mir Cəfər, dostun Stalin,
Səni basdıracaq dərindən dərin!
İki namizəd var sənin yerinə,
Stalin yəqin ki, onun birinə,
Səni dəyişəcək xalq düşməni tək.
Əlin qana batıb, deyilsən mələk!
Vaxtında onları özün qabaqla,
Ləkələ, gözdən sal, tapda, ayaqla.
Biri sənin yerlin həkim Əzizdir,
O biri Mikoyan, kini hədsizdir.
Müsəlman türklərə, sizin millətə...

Dostumsan, arada olan hörmətə
Açıram bu sirri, ayıq ol, ayıq,
Tufanda batmasın sürdüyün qayıq!"
Yaralı aslana dönür Mir Cəfər,
- Çox sağ ol! - Astaca dinir Mir Cəfər.

- Deməк üzü dönüb ulu rəhbərin...
Demək bəla gəlir, yoxdu xəbərim...
Bu da məslək dostu, məslək yoldaşı...
Gözləri önündə durur yanaşı,
İosif Stalin, bir də Mikoyan.

- Olsun... Nə deyirəm, göstərər zaman...
Bakıya üz tutur "Ellər atası"
Millətə dəyəcək yenə xatası.

- İllərdir dostunam, məsləkdaşınam,
Əyilməz bolşevik bir yoldaşınam.
Sənə tapşırmışam Azərbaycanı,
Harda görmüşəmsə sənin imzanı,
Təsdiq eyləmişəm yazdığın sözü,
Çalışdıq qalmasın düşmənin izi.
Kommunizm adlanan yeni dünyada,
Razıyam, işimiz getməyib bada.
Səninlə hər zaman bir olmuşuq biz,
Yüksək arzularla vurub qəlbimiz.
Sənə də, mənə də baş qaldıran var,
Bilirsən, dəyişir, dönür adamlar.
Əziz Əliyevi ucaldan mənəm,
Xəbərin olsun ki, indi düşmənəm.



Çəkdiyim zəhməti veribdi yelə,
Mənə quyu qazır o gülə-gülə.
Gizlicə hər işi yoxla diqqətlə,
O hansı ağılla, hansı cürətlə,
Bizim qarşımızda meydan sulayır?!
Görünür Bağırovu o uşaq sayır.

- Yoxlamaq nə lazım, məndə sənəd var,
Şamilə qəhrəman deyən dağlılar,
Ona arxalanıb qalxıb ayağa,
Getmək lazım deyil heç də uzağa.
Bir kitab yazıbdı filosof Heydər,
Arxiv olmasaydı yazardı məgər?!
Odur arxivləri üzünə açan,
Bir qərar hazırla sən daşdan keçən,
Ucal sən gözündə böyük rəhbərin,
Kremlə bildirib verək dərslərin.

- Yoldaş Yemelyanov, doğrudan da sən,
Bir çekist deyilsən, vallah, dahisən!
Sən qazdan ayıqsan, quşdan çeviksən,
Analar doğmamış bir bolşeviksən,
De görüm konyakla aran necədir?

- Siz için, mənimki ancaq cecədir!
Deyin gətirsinlər içək, şənlənək,
Məhv olsun düşmənlər, bir deyək-gülək!
"Ellər atasının" kefi durulur,
Kabinetdə xudmani məclis qurulur.
Sağlığa badələr boşalır dolur,
Arada min hiylə, min kələk olur.

## ON İKİNCİ NƏĞMƏ

Bir alim yaşardı həqiqətpərəst,
O nə islamçıydı, nə də xaçpərəst.
Hər bir filosofu əzbər bilirdi,
Haqqı, ədaləti rəhbər bilirdi.
O öz zəhmətilə, istedadıyla,
Əqli, zəkasıyla, ürək oduyla,
Teldən dırnağacan bir alim idi,
Şair ürəkliydi, çox həlim idi.
İlk dəfə söz açdı imam Şamildən,
Azadlıq dastanın yazdı könüldən.
Qafqaz ellərinin uca imamı,
Oldu o alimin eşqi, ilhamı.
Nə yuxu tanıdı, nə dinclik bildi,
Qafqaz tarixinin tozunu sildi.
İki il tər töküb, yazdı bir əsər,
Hər sözü, cümləsi tamam təzə-tər.
Şamilin azadlıq hərakatından,
Keçdi hər cümləsi yeddi qatından;
Böyük Rusiya deyən millətçilərin!
Onun hər fikri ümmandan dərin,
Kitab çıxan gündən yayım dayandı,
Yeni bir fəlsəfə qana boyandı.
Mir Cəfər Bağırov qəzəblə bir gün,
Danladı kitabı yazdığı üçün,



Dinləyib Bağırovun hər tənəsini,
Dedi: -Susdursan da haqqın səsini,
Şamil azadlığın ilk şimşəyidir!
O, səhər müjdəli dağ küləyidir.
Şamil carçısıdır baharın, yazın,
Azadlıq ruhudur qoca Qafqazın.
Elə bir ruhdur ki, ölməz heç zaman,
Başına cəm olan neçə qəhrəman,
Azadlıq uğrunda canından keçdi,
O, təslim olsa da əkdiyin biçdi.
Ədalət yolunu tutan kim oldu,
Uduzan kim oldu, udan kim oldu?
O, qoca Qafqaza birlik gətirdi,
O nədə uduzdu, nədə itirdi?!
Kim deyir yaddaşdan Şamil pozulmuş,
O bir tarixdir ki, qanla yazılmış.
O söylədi, səhv yazılıb tariximiz!
Panislamist deyil axı Şamilimiz.
O, azadlıq carçısıdı, bilir aləm,
Mən Şamilə pantürkist də deyənmərəm.
Yerə girsin bu böhdanı uyduran kəs!
Hansı "alim" söyləyibsə eyləyək bəhs,
Dəlillərlə sübut edim həqiqəti,
Üzə çıxsın varsa əgər cəsarəti,
İmam Şamil bu Qafqazın haqq səsidir,
Ulu haqqın, azadlığın zirvəsidir.
Bəli Şamil imperiyanın düşmənidir.
Ona böhtan atanların fikri nədir?
-Həqiqəti yazıb onlar, uduzarsan,
Ulu rəhbər belə deyir, sən bacarsan,

Müridizmi ifşa elə, o, tiryəkdi,
Rus xalqına xəyanətdə Şamil təkdi.
Get, dəyişdir əsərini, yenidən yaz,
Panislamist olduğunu bilir Qafqaz!"

- Yox, Mir Cəfər Abbas oğlu, ağ yalandı,
Şamil böyük şəxsiyyətdi, qəhrəmandı!
Bir alim tək ona böhtan atammaram,
Yalan yazıb, mən günaha batammaram.
- Dinlə, oğul, tutalım ki, doğrusan sən,
Ancaq xalqın zərbə alar Stalindən.
Ağa deyir sür dərəyə, sürməlisən,
Yazdığına sabah cavab verməlisən.
Ermənilər qan-qan deyən belə vaxtda,
Stalindi Moskvada hələ taxtda...
Sən özünü, həm xalqını məhv edərsən,
Həqiqəti yazsan, dostum, səhv edərsən.
Get, fikirləs, bir də düşün, ağıllı ol,
Millətini sürgün edər tutduğun yol.
Stalinə dahi deyir hələ bəşər,
Yetişməsə, meyvə ağacdan kal düşər.
Az sevmirəm şeyx Şamili mən özüm də,
Əqidəli bir insandı şeyx gözümdə.
Nə etməli, onlar güclü, gücsüzük biz,
Nə verəcək xalqımıza düzlüyümüz?!
Mən görmüşəm siyasətin hər üzünü,
Gəl xalqının gecə etmə gündüzünü.
Elə bilmə, ağır gündə boş durmuşam,
Siyasətdə azmanları çaşdırmışam,
Xəbərdaram Stalinin hiyləsindən,



Zərifə və Heydər Əliyevlər. 1954-cü il.

Bizə qarşı Mikoyanın fitnəsindən.
Haqq söyləyən Nərimanovu gətir yada,
Bir şovinist damğasıyla getdi bada.
Bu torpağın neçə-neçə oğlu, qızı...
Ağıllı ol, tərslik etmə, neçə tazı,
Danos yazır Moskvaya axşam-səhər.
Tüfəng kimi ayaqdadı "ulu rəhbər".
O özüdür şeyx Şamilə damğa vuran,
Tatarları, çeçenləri sürüb qıran...
Çarəm yoxdu, sənlə açıq danışıram,
Mən hər işə ehtiyatla yanaşıram.
Bir gün gələr çap edərsən kitabını,
Filosof tək bilməlisən hesabını.
Məcbur etmə, mən əl atım yamanlığa,
Ağlın olsun, gəl, daş atma qaranlığa.
Ümidvaram, unutmazsan sözlərimi,
Görmək üçün gözünə tax gözlərimi!

"Gözünə tax gözlərimi!" - tənə ağır,
Alim baxır rəhbərinə fağır-fağır...
Ah nə desin, sözmü olar sözü üstən,
Bəlkə onu qorxutmaqçın, özü qəsdən,
Əl atıbdı bu hiyləyə, bu kələyə,
Alim gedir acı qəmlər yeyə-yeyə.
Ürəyində Şamil ruhu o qəhrəman,
Elm yolunda fədai tək keçir candan.
Müdrikliyin, ömrün-günün yaz çağında,
Alim Heydər özün asır öz bağında.

## ON ÜÇÜNCÜ NƏĞMƏ

Mir Cəfər Bağırovun qəbul otağı,
Açılmır rəhbərin qaşı-qabağı.
Çağırıb qəbula Əziz həkimi,
Dövranın hakimi, dövrün hakimi.

- Gərək otuz yeddidə
İtirəydim səni mən.
Vətən xaini kimi,
Bitirəydim səni mən.
Gör necə aldanmışam
Sənə dost tək inandım.
Sənə etibar edib
İnama aldanmışam.

Söylə, gizli görüşdə,
Nə demisən rəhbərə.
O məndən üz döndərib,
Dəyişib birdən-birə.
- Yoldaş Bağırov, inanın,



Bir söz olmayıb sizdən.
Stalinlə söhbətim,
Olub işlərimizdən.
Onu maraqlandırıb,
Beşillik planları.
- Səbəbsiz soruşmuram,
Burax bu yalanları.
Mənə gəlib çatıbdı,
Təkbətək söhbətiniz.
"Rəhbərə, partiyaya,
Böyük məhəbbətiniz!"
- Əgər sizə çatıbsa,
Nədir mənim günahım.
- Əzəldən mən olmuşam
Sənin arxan, pənahın.
Öz şəxsi anketində,
Sən bizi aldatmısan.
Hardadı bacıların,
Niyə yalan satmısan?
Gizlətmisən onları,
İranda ola-ola.
Bəli, Əziz Əliyev,
Düşmüsən alçaq yola.
Dağıstan arxivini,
Kim göstərib Heydərə?
Biz çekistik, ayığıq,
Bizi sayma heyvərə.
- Mən sizə söyləmişəm,
Hər ağrımı, acımı.
İrana ərə gedən,

Iki böyük bacımı.
Aləm bilən bu işi,
Niyə gizlədim, niyə?!
- Dağıstana gedəli,
Sığmırdın yerə-göyə.
Gördünmü bir sözümlə,
Necoldu aqibətin.
Mikoyandan dost olar,
Hanı milli qeyrətin?!
- İnanın, ağ yalandı,
Səhv məlumat verən var.
Uydurmadı, böhtandı.
Aralığa girən var.
Mən hara, dostluq hara,
O da ola Mikoyan.
Mikoyanlar deyilmi,
Bizi didərgin salan.
- Yaxşı, sən deyən olsun,
İnandım sözünüzə.
Şübhəliydim doğrusu,
Söylədim üzünüzə.
Gedin unutmayın ki,
Hardasa Mircəfər var.
Ulduza da çıxsanız
Sizi axtarar, tapar.
Bağrovun qəbulundan
Geri dönməyib heç kim.
Gecə gecədən keçib,
Evinə dönür həkim.
Leyla xanım, uşaqlar,



Yatmayıb hamı oyaq.
Hamı öpür atanı,
Boynuna sarılaraq.

Leyla xanım sevincdən,
Ağlayır uşaq kimi.
Qızlar qızıl don geyir,
Sevindirir həkimi.
Alimi, şairi məhv edən zalım,
Sabahı görmədi gözlərin sənin.
Yazıq bir millətin ruhunda sızlar,
Cəhənnəm xofu tək izlərin sənin.

Eybini görənin gözünü oydun,
Haqq deyib dinənin dodağın soydun,
Ziyalı milləti ziyasız qoydun,
Bir yol da əsmədi dizlərin sənin.

Sən nələr açmadın xalqın başına,
Al qana boyandı çıxan qarşına.
Tarixin pozulmaz daş yaddaşına,
Qan ilə yazıldı sözlərin sənin.

## ON DÖRDÜNCÜ NƏĞMƏ

Evlərinə axıb gəlib dağ şaxtası,
dağ sazağı,
Neçə gündür yas içində, açılmayır
qaş-qabağı.
Üzündəki təbəssümü itib-gedib
yoxa-çıxıb,
Gözlərindən yanağına
ılıq-ılıq yaşlar axıb.
Əri çıxıb vəzifədən,
onun bəxti gətirməyib,
Leyla xanım sarsılsa da,
məğrurluğun itirməyib.
Deyib-gülən övladları
düşüncəli, dinməz, sakit,
Haylı, küylü bir ocağa
qonaq gəlib buz bir sükut.



Zərifə xanım Əliyeva. Fotoportret. 1954-cü il

Əziz həkim dindirsə də
zarafatla uşaqları,
Hamı qəmli, gülən yoxdu
kilidlənib dodaqları.
Neçə vaxtdır yoxa çıxıb,
ətrafında gəzən "dostlar",
Yoxa çıxıb qonaqlıqlar,
gurultulu, şirin tostlar.
Birdən-birə qeyb olubdu
yaltaq süfrə pişikləri,
El-obanın təmənnalı yaltaqları,
düşükləri.
Gündə yüz yol telefon açıb
kef-əhvalın soruşanlar,
Çətin gündə, dar ayaqda
tez aradan sürüşənlər.
Kənar gəzir, kənar qaçır
Əziz həkim görünəndə,
Qəribədir ondan qaçır
arxasınca sürünən də.

Dərdi böyük, dünyası dar,
Sədaqəti olan dostlar.
Unutmayır onu bir an,
Yolda, izdə görən zaman,
Xəlvət gəlib görüşürlər,
Dərdi, qəmi bölüşürlər.
O, Bakıya dönən gündən,
"Vəzifədən enən" gündən,
Onu güdür, gözləyirlər,

Addım-addım izləyirlər.
Yemelyanov adam salır,
Neçə casus oyaq qalır.
Küçələrdə gecə-gündüz,
Söz çəkənlər dönür sözsüz.
Zərifə də, Tamerlan da,
Belə çətin bir zamanda,
Ayrılmayır atasından,
Ayrılmayır bir an belə,
Bir gəzib, bir dolaşırlar,
Küçələri deyə-gülə.



## ON BEŞİNCİ NƏĞMƏ

I

Dərdim min bir kitab oldu.
Yandı ürək kabab oldu.
Haqdan belə xitab oldu,
Ucalardan ucadı eşq.

Bilməyənə söz söyləmə,
Sözü qiymətsiz eyləmə.
Bu sirr deyil, yay aləmə,
Ucalardan ucadı eşq!

Kimlər ona can vermədi,
Kimlər ondan gül dərmədi,
Kim yanmadı, kim görmədi,
Ucalardan ucadı eşq.

Məcnunları çölə saldı,
Kərəmləri dilə saldı,
Nadanları ələ saldı,
Ucalardan ucadı eşq.

Çiynimizdə iki mələk,
Üstümüzdə yeddi fələk,
Yüz doğulsaq, yüz ələnsək,
Ucalardan ucadı eşq.

Qafil olma oyan könül,
Haqq nuruna boyan könül,

Belə söylər duyan könül,
Ucalardan ucadı eşq!

II

Elə bil ki, otağına,
Boz ay gəlib, boz ay girib.
Divarlar boz, pərdələr boz,
- Əyləş, deyir yer göstərib.
General ciddi, general kinli,
Ona baxır cinli-cinli.
Sazaqlı küləklər əsir,
Can evində buz nəfəsli.
Elə bil ki, yay günündə
Geri dönüb bir qış fəsli.
O dayanıb ayaq üstə,
Durub əmrə müntəzir.
Ortada bir sükut var,
Ürək yaxır, can üzür.
- Könül açan deyildir,
Aldığım son məlumat.
KKB zabitisən,
Eşqi ürəyindən at.

Vəzifədən götrülüb,
Sevdiyinin atası.
Gələcək karyerinə,
Dəyər yəqin xatası.
Əl çək qızla görüşdən,
Bağırov eşidər, bilər.
Səni bizim sistemdən



Bir an içində silər.
- Bağışlayın general,
Bağlanmışam ürəkdən.
Öz eşqimdən, andımdan,
Ölsəm də dönmərəm mən.
Uca, ülvi sevgimi,
Mən şöhrətə satmaram.
Vəzifəmi ataram,
Zərifəmi atmaram!

Yemelyanov qəzəblə,
Süzür öz zabitini.
Elə bil ki, dünyası,
İtirir orbitini.
Boz sifət göstərərək
Bozarsa da dalınca.
Bilir bu cavan zabit
Qızdan dönməz ölüncə.

İlk dəfədir ki, əmri,
Sözü yerə salınır.
İlk dəfədir əski tək,
Özü yerə salınır.

## ON ALTINCI NƏĞMƏ

- Aç, gözünü aç ana,
Aç, aç, daha qorxma.
Sən oğlunu, qızını,
Görəcəksən darıxma.

- Səsinə qurban bala,
Boynuna heyran bala,
Ah, deyəsən görürəm,
Bu sənsənmi, can bala?!

Mən görürəm ey insanlar,
Şükür ya rəb dərgahına!
Sağ ol, qızım, qurban olum
Səni verən Allahıma!

İlk xəstəsi görür onun,
gözlərinə o nur verir,
İlk xəstənin ilk alqışı
gənc həkimə qürur verir.
Hamı onu təbrik edir
gül çiçəklə,



Uca ülvi məhəbbətlə,
xoş niyyətlə, saf ürəklə.
Sevincindən fərəhindən
qanadı yox uça həkim,
Öz əhdinə, öz andına sadiq olan uca həkim.
İlk xəstəsi görən gündən
adı düşür dildən-dilə,
Azərbaycan torpağında
ağız-ağız, eldən-elə.
Göz işığın itirənlər
ona pənah gətirirlər,
Neçələri şəfa tapıb
qaranlığı itirirlər.
Adı olur göz həkimi,
Türk elinin öz həkimi.
Vətənimin zərif qızı,
alim qızı,
Tibb elminin ilk ülkəri,
ilk ulduzu!

## ON YEDDİNCİ NƏĞMƏ

Nə müddətdi açılmayır qaş-qabağı,
Nə müddətdi Əziz həkim dinclik bilmir.
Vargəl edib dolaşdıqca hey otağı,
Can evində tufan qopur üzü gülmür.

Anladıqca fitnələri, kələkləri,
Aydınlaşır kimdən gəlir bu zərbələr.
Hardan əsir ömrün acı küləkləri,
- Yalan sözmüş "zər qədrini zərgər bilər!"

Bu oyunda kim uduzur, kim qazanır,
Onu niyə ucuz satır qoca şeytan.
Düşündükcə Əziz həkim qəlbi yanır,
Anlayır ki, aldadılıb zaman-zaman.

Anlayır ki, kürəyindən vurulubdu,
Arxa sanıb güvəndiyi namərd çıxıb.
Dost əliylə qol-qanadı qırılıbdı,
Nişan alan güllləsini sərrast sıxıb.

Katiblərin işgüzarı təmiziydi,
Dağlıları saxlayırdı əl içində.
O, Dağıstan xalqlarının Əziziydi,
Adı, sanı uca idi el içində.

Mir Cəfərin qəbulundan,
Sağ-salamat çıxan gündən,
Nələr çəkdi Əziz həkim,



Zərifə xanım Əliyeva. Fotoportret. 1981-ci il.

İllər saldı saçına dən.
Dünən ona baş əyənlər,
Bu gün ondan uzaq qaçır.
Sağlığına tost deyənlər,
Xəlvət gəzir, xəlvət keçir.
Bu ömürdü, yoxsa röya,
Min yalanla gəlir sabah.
Yer, göy, dünya - həmin dünya,
Bəs dəyişən nədir, Allah?

Belə çıxır dünənəcən,
Olan nə var yalan imiş.
Böyük Cavid əhsən sənə,
Demək şeytan - insan imiş.

Cavid kimi dahiləri,
Ələ salıb gülən rəhbər.
Bu gün qorxur karyerası,
Vəzifəsi əldən gedər.

Adam kimi adam deyil,
Şeytan kimi şeytan deyil.
Kim yaradıb bunu Allah,
Çalır, amma ilan deyil.

Yer üzünün tülküləri,
Onu görüb qan ağlayır.
O gələndə qorxusundan,
Cin şeytanı ayaqlayır.
Onun kimi yer üzündə,
Heç kəs mərdə daş atmayıb.
İnanmıram, vallah onu,
Bizim Allah yaratmayıb...

- Bir sözüm var sənə Əziz,
Ürək edib deyənmirəm.
Bir oğlanı sevir qızın,
Xətirinə dəyənmirəm.

Bilirəm ki, xəbərsizsən,
İki ildir gizlədirəm.
- Xəbərdaram Leyla xanım,
Addım-addım izlədirəm.
O, KKB zabitini.
Doğrudan da sevir qızı.
Ailəsi kasıb, təmiz
Evlənsinlər, mən də razı.
- Sənə qurban olum Əziz,
Ah, nə böyük ürəyin var.
Kaş ki sənə bənzəyəydi,
Yer üzündə cəm atalar.



## ON SƏKKİZİNCİ NƏĞMƏ

Sən saydığın say, gözəlim,
Gör nə sayır çərxı fələk.
Əcəl "dahi rəhbər" bilməz
Canın alar bir canlı tək.

Ala gözlü Əzrailin,
Qanadları toz görünər.
Ruhu çəkib çıxaranda,
Dünya, aləm nur bürünər.

Min doqquz yüz əlli üçdə,
Martın beşi vayla gəldi.
Yas saxladı "Sovet xalqı",
Yaz dünyaya toyla gəldi.

Bolşeviklər bir ordu tək,
O il oldu pərən-pərən.
Dahi rəhbər öldü getdi,
Tapılmadı yol göstərən.

Düşmən oldu malinkovlar,
İttifaqa bozaq düşdü.
Stalinin şagirdləri,
Moskvadan uzaq düşdü.

Nikitanın dövrü gəldi,
Mikoyanlar at oynatdı.
Muzeyləri yağmaladı,
Ucuz aldı, baha satdı.

Lavarenti güllələndi,
Düşmən oğlu düşmən kimi.
Mir Gəfər də həbs olundu,
Ələ fürsət düşən kimi.

İrəvana yol açıldı,
Gəldi daşnak emisarlar.
Cınqırını çəkənmədi,
Haylı-küylü komissarlar.

Mikoyanlar söhbət açdı,
Otuz illik bir təftişdən.
Qurultayda nitq elədi,
"Şəxsiyyətə pərəstişdən".

Böyük rəhbər quran dövlət,
Hər il getdi tənəzzülə.
Bir lətifə qoşdu hərə,
Xruşova gülə-gülə.



Amerika üstələdi,
SSRİ-ni siyasətdə.
Nikitanın hər nitqində,
Gülünc oldu siyasət də.

Öz işinə döndü təzdən,
El loğmanı Əziz həkim.
Daha onu qorxutmadı,
Nə bir təqib, nə bir hakim.

Sən saydığın say, gözəlim,
Gör nə sayır çərxi fələk.
Əcəl "dahi rəhbər" biməz,
Canın alar bir canlı tək.

# ON DOQQUZUNCU NƏĞMƏ

Tarsız, sazsız, kamansız,
Aşıqsız, balabansız,
Bir toy oldu sadəcə
Tamadasız, filansız.

Sağdışsız, solduşsuz toy,
Yengəsiz, bacılıqsız toy.
Bir toy oldu, sadəcə
Ağrısız, acısız toy.

İki ürək qovuşdu,
Biri-birinə həsrət.
Hər könüldə dünyaca,
Sevgi, vəfa, məhəbbət.

Təzə bəylə gəlindən,
İnciyib küsən oldu.
Onlardan üz çevirib,
Dostluğun kəsən oldu.

Toysuzca evlənənlər,
Ömrü toyla yaşadı.
Onlara qibtə etdi,
Neçə-neçə yaşıdı.



Zərifə xanım Əliyeva. 1981-ci il.

# İYİRMİNCİ NƏĞMƏ

Bir ömür yaşadı Zərifə xanım
Xalqıyla hər anı bağlı bir ömür.
Gözlərə nur verdi, işıq payladı,
Hər günü möcüzə, nağıl bir ömür.

Şəfalı əlləri yod zavodunda,
Ömrünü bəzədi neçə insanın.
Peşə xəstəliyin şikəst etdiyi,
Neçə ixtiyarın, neçə cavanın.

Onun əllərilə şin zavodunda,
Qorundu gözlərin nuru, işığı.
Anaydı, həkimdi, vəfalı yardı,
Ömür yaraşığı, gün yaraşığı.

Alimlər yanında müdrik bir alim,
Oğul, qız yanında bir ana idi.
Hippokrat andından dönməyən həkim,
Eşqinə, əhdinə pərvanə idi.

Onun dünyasına dünya sığırdı,
Dünyası bahardı nə qar, nə sazaq.
Paxıllıq yox idi saf ürəyində,
Bir ömür yaşadı həsəddən uzaq.

Düşmənsiz ömr etdi Zərifə xanım,
Onun düşməniydi hər dərd, hər azar.

Ölümü əysə də əyilməzləri,
Sevili, İlhamı qaldı yadigar.

Müdrik idi, gözəl idi,
zərif idi, məğrur idi,
Xanım idi, uca idi, bir Vətənə
qürur idi.
İnsanlara nur paylayan
o loğmanın özü idi,
Xalq içində göz həkimi
həkimlərin gözü idi.
O, Vətənin tək qızıydı,
ucaların ucasıydı,
Xəstələrin nur payıydı,
bacısıydı, anasıydı.
Azərbaycan torpağında
haqq nurunun şöləsiydi,
İgid qadın, boyu uzun Burlaxatun nəvəsiydi.
Alimlərin məclisində öz sözü, öz yeri vardı,
Bu dünyadan vaxtsız köçdü,
özüylə rəhmət apardı.
Ana Vətən qara geydi,
dalınca ellər ağladı,
Azərbaycan torpağında
çiçəklər, güllər ağladı.



## EPİLOQ

I

Ona bəşər demək olmaz,
O göylərdən göndərilmiş
Saf ürəkli bir mələkdi.
Ona mələk demək olmaz,
Mələklərdən, pərilərdən,
Çox gözəldi, çox göyçəkdi.
Ölçülərə sığışmırdı,
Sadəliyi, insanlığı,
Çox ucaydı, çox yüksəkdi.
Ona bacı demək olar,
Ona ana demək olar,
Məhəbbətdə, sədaqətdə,
İnsanlara mərhəmətdə,
Övülya tək, vallah təkdi.
Ata, ana heyran qaldı,
Ayağının uğuruna,
Qədəminin sayasına.
O dünyaya gələn gündən,
Günəş doğdu bəxtlərinin
Göylərinə, aynasına.
Qızlarına vurğun idi
Əziz həkim, Leyla ana.
Qəlblərində bütün dunya
Bir yanaydı, qız bir yana!

## HANI O SƏHƏR
(nəğmə)

Səhər gəlibdimi söylə dünyaya,
Sənlə görüşdüyüm o səhər kimi.
Sənin ayrılığın acıdan-acı,
Doğrayır içimi bir zəhər kimi.

Yada düşəndə,
O sənli günlər
Yaralı qəlbim
Ney kimi inlər.
Hanı o səhər
O toy, düyünlər?

Gözlərəm bir ömür gəlməz səhərim,
Həsrətdən bağrımın başı sökülür.
Sənsiz sabahlarım açılmaz mənim,
Gecələr bal yuxum ərşə çəkilir.



Zərifə və Heydər Əliyevlər nəvələri Zərifə ilə. 1981-ci il.

## ELEGİYA

Əməllərin bahar çağı,
Vətən boyu ağ çiçəkdi.
Gözlər könüllər oxşardı,
Nə gözəldi, nə göyçəkdi.
Ağ mərmərdə çiçək açdın,
Əbədi bir nura döndün.
Ölümsüzlük qismətinmiş,

Sən əcəli gözəl yendin.
Azərbaycan torpağının
Müdrik qızı, alim qızı.
Günəş kimi əbədisən,
Şairlərin çatmaz sözü
Dastan qoşa, ucaldığın
Elegiya zirvəsinə!
Heç bir nəğmə çata bilməz,
Daşa dönmüş heykəlinin,
Səssiz, sözsüz nəğməsinə.

*Aprel-may, 1985-ci il,*
*Bakı*

## XATİRƏLƏR

Akademik Mustafa Topçubaşov:

*- Əziz Əliyevi yalnız həkim və ya professor adlandırmaq düzgün olmazdı. Doğrudur, o, universitetin tibb fakultəsini bitirmiş, həkim işləmiş və tibb elmləri doktoru olmuşdur. Mənim fikrimcə onu "cəmiyyətin təbibi" adlandırmaq daha doğru olardı. Çünki cəmiyyət özü də canlı orqanizmdir və onun da təbii ki, müalicəyə ehtiyacı var.*

Akademik M.S.Cavadzadə:

*- Qoy zaman öz axarı ilə hərəkət etsin. Onu tanıyan, onunla əməkdaşlıq edən bizlər isə həmişə, hər zaman xalqımızın ən yaxşı qızlarından olan Zərifə xanımın işıqlı xatirəsini əziz tutacağıq.*

Professor Zəhra Quliyeva:

*Zərifə xanım istedadlı, hər tərəfli insan idi. Yüksək zəka, geniş savad yiyəsi idi. Yaxından tanıyanlar onun ədəbiyyat sahəsindəki biliklərinə qibtə edir, incəsənət əsərlərindən zövq almasına həsəd aparırdı.*

*... Təbiət ona incə yumor hissi, tükən-*



*məz həyat sevərlik və nikbinlik kimi nadir sərvətlər bəxş etmişdir.*

Professor Nazim Əfəndiyev:

*- Zərifə xanım işgüzarlığı, xeyirxahlığı, qayğıkeşliyi, nəcibliyi, istiqanlı və qeyri adi nikbinliyi ilə min adamın içində seçilirdi.*

*... O əsl dost idi və yalnız şad günümüzdə deyil, həm də qəmli anlarımızda Zərifə xanım bizim hamımıza öz kömək əlini uzadırdı.*

Professor Q.M. Nəsurullayeva:

*- Zərifə xanımın sevinci, kədəri mənim, mənim sevincim, kədərim onun idi.*

*... O, mənim üçün yüksək mədəniyyət, ziyalılıq, düzlük və öz işinə sadiqlik, bütün bilik və bacarığını xalqına xidmət işinə yönəldən böyük bir insan obrazıdır.*

Professor M.Y.Sultanov:

- ... Zərifə xanım həmişə təmkinli və səbirli olardı. Hətta nəyə görə isə qəzəblənəndə belə o, heç zaman kobudluq etməzdi.

Professor Adil Nəcəfov:

*- Zərifə xanım tələbələrlə, gənc həkimlərlə söhbət edərkən onlara həssaslıq və*

*diqqətlə yanaşardı, bu isə onlar üçün vətəndaş yetkinliyinin əsl məktəbi demək idi.*

Xalq rəssamı A.M. Mirqasımov:

*- Biz Zərifə xanımı yaxından tanıyanlar, yer üzündə belə gözəl insanlarla bizi rastlaşdırdığı üçün taleimizə minnətdar olmalıyıq.*

*O, insanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yalnış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi.*

Akademik Fərəməz Maqsudov:

*- Zərifə xanımın Vətən qarşısında, el qarşısında, milli elmimizə göstərdiyi xidmətlərdən çox danışmaq olar, cild-cild kitablar yazmaq olar. Ancaq onun ən böyük xidmətlərindən biri də ailə qarşısındakı xidmətidir. XX əsrin görkəmli siyasətçilərindən, ən istedadlı öndərlərindən birinin başçılıq etdiyi ailəyə ağbirçəklik etmək hər qadının işi deyil - ər qadının işidir!*

Fatma Abdullazadə:

*- Hər bir Böyük insanın qəlbində Böyük bir qadın qərar tutur. Zərifə xanım Əliyeva məhz Dahi insan qəlbinin yurdçusu olan Dahi qadındır.*



Hüquqşünas, professor Mehdi Mehdiyev:

*- Mahacqala da bir müddət işlədikdən sonra darıxdım. Həyat yoldaşımı gətirmək üçün Azərbaycana gəldim. Yoldaşımı götürüb qatarla Mahacqalaya qayıdırdım. Bu zaman bizim kupeyə orta boylu bir nəfər nurani kişi daxil oldu. Salam kəlamdan sonra hara getdiyimi, nə işində çalışdığımı və Dağıstanda kimləri tanıdığımı soruşdu.*

*Bir xeyli söhbətdən sonra özünü təqdim edərək:*

*- Əziz Əliyev mənəm. - dedi və elə oradaca bir "zapiska" yazıb rəisim - nazir müavini Abakarova çatdırmağımı bildirdi. Kiçik kağız parçasında yazılmışdı: "Məktubu sizə təqdim edən bacım oğludur. Əziz Əliyev". Məktubu rəisə təqdim etdim. Elə həmin gün baş əməliyyat müvəkkili vəzifəsinə dəyişildim, bir otaqlı mənzillə təmin olundum. Mənə edilən yaxşılıqlar bu gün də Dağıstan xalqları tərəfindən sevilən görkəmli alim, siyasi xadim Əziz Əliyevə göstərilən hörmət və məhəbbət idi.*

Xalq şairi Süleyman Rüstəm:

*"Duyuram dərindir, ağırdır yaran,*
*Deyirəm ki, bu qəm son qəmin olsun.*
*Ey sadə, ey nəcib, ey böyük insan,*
*Təsəlli ömürlük həmdəmin olsun!"*

Xalq şairi Nəbi Xəzri:

*"Zərif ürəkliydi*
*O məğrur qadın,*
*O, Əziz qızını el əzizlədi*
*O, igid Nüşabə,*
*O Burlaxatun*
*Xalqını işığa, nura səslədi."*

Xalq şairi Hüseyn Arif:

*Elə ki, balalar gəlir dünyaya*
*O gündən hey ölçüb, biçir analar.*
*Mahnı da oxuyur, şer də deyir*
*Bəstəkar analar, şair analar.*
*Özüm də bilmirəm Hüseyn, niyə*
*Başımın tüstüsü çəkilir göyə,*
*Torpaqmı anasız qalmasın deyə*
*Torpağın qoynuna köçür Analar.*

Xalq şairi Məmməd Araz:

*İnana bilmirəm: ölüm haqq ola,*
*Torpaq rəssam uda, bəstəkar uda!*
*Ana dəfn oluna, gözəl qocala...*
*Bəlkə bir səhnədir,*
*əsərdir bu da...*



## MÜNDƏRİCAT

Akademik Zərifə Xanım....................................5
Dahiyanə ömür (*Rafiq Məhəmmədhəsənov*)......16
Xanımlar xanımı....................................25
Allahın adı ilə....................................26
Məhəmməd peyğəmbərin şərəfinə....................29
Aman, palıdım, aman................................35
Heydər Əlirza oğlunun şərəfinə....................36
İlham Heydəroğluna.................................40
Yaz, yarat..........................................41
Dünya................................................42
Önlük................................................46
Birinci nəğmə.......................................51
İkinci nəğmə........................................53
Üçüncü nəğmə........................................54
Dördüncü nəğmə......................................58
Beşinci nəğmə.......................................61
Altıncı nəğmə.......................................62
Yeddinci nəğmə......................................64
Səkkizinci nəğmə....................................69
Doqquzuncu nəğmə....................................71
Onuncu nəğmə........................................74
On birinci nəğmə....................................79
On ikinci nəğmə.....................................82
On üçüncü nəğmə.....................................88
On dördüncü nəğmə...................................92
On beşinci nəğmə....................................97
On altıncı nəğmə....................................100
On yeddinci nəğmə...................................102

On səkkizinci nəğmə....................................107
On doqquzuncu nəğmə....................................110
İyirminci nəğmə....................................113
Epiloq....................................115
Hanı o səhər........... ....................................116
Elegiya....................................119
Xatirələr....................................120

*Bu kitabın işıq üzü görməsində böyük əməyi olan iş adamı Abdulla Abdullayevə öz minnətdarlığımı bildirirəm.*

*Dəmir Gədəbəyli.*